Xalq qəzeti.- 2021.- 25 avqust.- S.4.

# Füzuli aeroportu regionun ixrac imkanlarının genişləndirilməsində böyük rol oynayacaq

***Füzuli Beynəlxalq Hava Limanı Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından mühüm önəm daşıyır.***



Eniş-uçuş zolağı artıq hazır olan bu hava limanında indi ilk sınaq uçuşları həyata keçirilir. Aeroportda müntəzəm reyslərin yerinə yetirilməsi məqsədilə radiotexniki vasitələrin hazırlığının yoxlanılması üçün xüsusi hava gəmisi ilə həyata keçirilən uçuşlar avqustun 20-də başlayıb və bu həftə ərzində tamamlanması nəzərdə tutulub.

Füzuli aeroportu regionda ən qısa zamanda inşa edilən beynəlxalq hava limanlarından biridir. Bu ilin əvvəlində inşasına başlanan kompleksdə artıq gələn ay ilk uçuşları həyata keçirmək mümkün olacaq. Cəmi 4 aya yaxın bir müddətdə hava limanının ilkin infrastrukturunu əsaslı şəkildə formalaşdırmaq mümkün olub.

Hava limanı uzunluğu 3 kilometr, eni 60 metr olan uçuş enmə zolağı, 60 min kvadratmetrlik 8 hava gəmisinin dayanması üçün sahə, sərnişinlərə xidmət göstərəcək terminal, hava gəmilərinin idarəedilməsi üçün qüllə, transformator yarımstansiyası, qazanxana, su anbarı və başqa köməkçi tikililərdən ibarət olacaq. Aeroport, eyni zamanda, 1 saat ərzində 200 sərnişinə xidmət edə biləcək.

Füzuli hava limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin gəlməsi baxımından da olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı isə kifayət qədər çoxdur. Füzulidə hava limanının tikilməsi imkan verəcək ki, həmin turistlər daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa düşməndən təmizlənən ərazilərimizə səfər edə bilsinlər. Həmçinin aeroport yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir.

İşğaldan azad olunmuş ərazilərimizin sənaye potensialını da nəzərə alsaq, Füzulidə açılacaq hava limanı həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından vacibdir.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***